## “Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi əlaqələri şəbəkəsində Azərbaycan şərqşünaslığı”

**mövzusunda BDU Şərqşünaslıq fakültəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın keçirilməsi haqqında**

**14-15 dekabr 2022-ci ildə** Bakı Dövlət Universitetində Şərqşünaslıq fakültəsinin 100 illik yubileyinə həsr olunan

## “Azərbaycan şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi əlaqələri şəbəkəsində”

## mövzusunda

beynəlxalq elmi konfrans keçiriləcək.
Konfransda iştirak etmək istəyənlər məruzələrinin tezislərini …… ünvanlı elektron poçta göndərməlidir.

**Konfransın təqvimi:**

Tezislərin göndərilməsi üçün son tarix - **31 oktyabr 2022-ci il**

Qəbul olunmuş tezislərin elan edilmə tarixi – **10 noyabr 2022-ci il**
Konfransın keçirilmə tarixi – **14-15 dekabr 2022-ci il**

**Konfransın işçi dilləri**: Azərbaycan, ingilis, türk və rus dilləri

Konfransın **bölmələri və mövzu istiqamətləri**:

Azərbaycanda şərqşünaslıq tədrisi və tədqiqlərinin inkişaf mərhələləri

Yazılı Şərq mənbələrinin öyrənilməsi, nəşri və mətnşünaslıqda yeni elmi texnologoiyaların tətbiqi

Şərq xalqlarının klassik ədəbi-mədəni, tarixi-fəlsəfi və elmi-nəzəri irsi

Şərq yaradıcı düşüncəsindəki sabit modellər və onların qovuşduruculuq missiyası

Şərq dillərinin tədrisində ənənəvilik və müasir yanaşmalar

Qloballaşan dünyada Şərq və ictimai-siyasi proseslər şərqşünaslıq müstəvisində

Şərq ölkələrində ədəbi proses və ədəbi tənqid

Mədəniyyətlər, dillər və dinlər arası dialoqda şərqşünaslığın körpü funksiyası

Şərq poetikası: ənənə və müasirlik

Şərq dillərinin tarixi, nəzəri məsələləri, aktual problemləri

Tərcümə abidələri və müasir tərcümə sənəti

Şərqdilli Azərbaycan qaynaqları və Şərq mənbələrində Azərbaycan

**Tezislərin tərtib olunma qaydaları:**

**Tezisin adı** 12 sözdən çox olmamalıdır.

**Tezisin adı:** böyük hərflərlə, qalın şrift, şrift ölçüsü 14 pt, şrift Calibri
**Müəllifin soyadı, adı, atasının adı:** qalın şriftlə, şrift ölçüsü 12 pt, şrift Calibri
**Təşkilat, şəhər və ölkənin adı:** adi şriftlə, kursiv, şrift ölçüsü 12 pt, şrift Calibri
**Elektron ünvan:** adi şriftlə, kursiv, şrift ölçüsü 12 pt, şrift Calibri

Məruzələr həcmi 15 dəqiqəyədək.

Təqdim olunmuş tezisin həcmi maksimal 500 söz.

Mətnlərin ölçüsü: format A4, fayl formatı *doc, *docx, şrift Calibri, şrift ölçüsü 14 pt, yuxarıdan 2,7 sm, aşağıdan 2,0 sm, soldan 2,0 sm, sağdan 2,5 sm. boşluq, interval 1 olmalıdır.

İstinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində (məsələn, [2]), ədəbiyyat siyahısı mətnin sonunda verilməlidir (məsələn: 2, müəllifin və əsərin adı, nəşriyyatı, nəşr yeri və ili, istinadın səhifəsi).

İştirakçı haqqında bütün məlumatlar onlayn müraciət sisteminə daxil edilməlidir.

Konfransın elmi istiqamətlərinə uyğun gəlməyən tezislər qəbul edilməyəcək.

Konfransın materialları (məqalə və tezislər toplusu) nəşr ediləcək və iştirakçılara müvafiq setifikatlar veriləcəkdır.

**Konfransın keçiriləcəyi yer və əlaqə:**

Bakı Dövlət Universiteti,

AZ1148, Z.Xəlilov küç., 33.
Tel: (+99412)
Mob: (+99451)
E-poçt:
Sayt: